Aprelin 14-də Təhsil Nazirliyində “Ən yaxşı müəllim” müsabiqəsinin II mərhələsi ilə bağlı müşavirə keçirilib.

Tədbiri açan təhsil naziri Misir Mərdanov “Ən yaxşı ümumtəhsil məktəbi” və “Ən yaxşı müəllim” müsabiqəsinin I mərhələsinin başa çatdığını bildirib.

Müşavirədə o da məlum olub ki, Təhsil Nazirliyində aidiyyəti şəxslərin iştirakı ilə keçirilən müzakirə zamanı növbəti mərhələyə keçid balı minimum 16 müəyyən edilmiş və buna müvafiq olaraq təşkilat komitəsinin qərarı ilə müsabiqənin növbəti mərhələsinə 208 müəllim buraxılıb.

Misir Mərdanov bildirib ki, II mərhələyə vəsiqə qazanmış müəllimlərin sınaq dərsləri keçəcəklərini bildirib. Bu isə böyük məsuliyyətlə yanaşmağın zəruriliyini məktəb rəhbərlərinin diqqətinə çatdıran nazir tədbirin yüksək səviyyədə həyata keçirilməsinin onların təşkilatçılıq qabiliyyətindən asılı olduğunu vurğulayıb.

Daha sonra “Ən yaxşı ümumtəhsil məktəbi” müsabiqəsi haqqında məlumat verən Misir Mərdanov iştirak üçün 126 məktəbin müraciət etdiyini, onlardan 102 məktəbin II mərhələyə buraxıldığını qeyd edib.

Müşavirədə “Ən yaxşı müəllim” müsabiqəsinin II mərhələsi ilə bağlı digər məsələlər də müzakirə olunub.